# Mədəniyyət və incəsənətimizin zərif himayədarı

***Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir.***

***Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezident Mehriban Əliyevanı təqdim edərkən səsləndirdiyi fikirlərdən***

***Bakı, 21 fevral 2017-ci il.***




***Azərbaycan qadınının zərif və kövrək olduğunu çoxları– həm öz müəlliflərimiz, həm də əcnəbi həmkarlarımız dəfələrlə yazıblar. Bu həqiqətdir. Ancaq Nizami Gəncəvinin "İsgəndərnamə"sində obrazı yaradılan Bərdə hökmdarı Nüşabə, xalqımızın ilk diplomat xanımı olan – Uzun Həsənin anası Sara Xatun, bu il 190 illiyini qeyd etdiyimiz Xurşidbanu Natəvan və müasirimiz olan Mehriban xanım Əliyeva təkcə zəriflik və xeyirxahlıq rəmzi deyil, həm də qətiyyət, iradə, bilik və bacarıqlarına görə də tarixi şəxsiyyət statusu qazanmış xanımlardır. Mehriban xanımın xoşbəxtliyi ondadır ki, o məhz öz sağlığında tarixi şəxsiyyətlər sırasına düşmək hüququ qazanmışdır.***

Mən Mehriban xanımı yuxarıda adını çəkdiyim qadın soydaşlarımızdan biri – Xurşidbanu Natəvanla müqayisə etmək istərdim. Çünki Natəvan da milli ədəbiyyat və mədəniyyətimizin himayədarı olub, Mehriban xanım da. Bu xanımların hər ikisi xeyriyyəçilik kimi milli ənənəmizin ən mükəmməl nümunələrinə imza atıb. Zəmanəsinin görkəmli şəxsiyyətlərindən olan Xurşidbanu Natəvan təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada xeyirxahlığı və mesenatlığı ilə tanınırdı. O, Şuşaya su kəməri çəkdirmişdi və indi də Xan qızının mülkü qarşısında Natəvan bulağı çağlamaqdadır.

Zəmanəsinin ən humanist qurumlarından olan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə isə bir çox önəmli layihələr, proqramlar reallaşdırılmışdır. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 13 il ərzində ölkəmizdə üç mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilmişdir. Fikrimcə, xalq üçün məktəb də elə bulaq timsalındadır.

Bu məqamda mən hər iki görkəmli xanım barədə bilavasitə Prezident İlham Əliyevin fikirlərini yada salmaq istərdim. Məsələn, dövlət başçımızın Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında imzaladığı sərəncamda deyilir: "Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarındandır. İncəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan sənətkar Şərq poetik ənənələrinə sədaqətlə yazıb yaratmış, mənəvi saflığa çağıran və insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və parlaq bədii boyalarla zəngin bir irs qoyub getmişdir. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplamış və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərmişdir".

Dövlət başçımızın Mehriban xanım Əliyeva barədə olan fikirlərində isə oxuyuruq: "Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur".

Bu zaman başqa bir məqamı da qabartmalıyıq. Belə ki, Mehriban xanım UNESCO – Azərbaycan əməkdaşlığının daha da genişləndirilməsinə xüsusi töhfələr vermiş, bu qurumun xoşməramlı səfiri seçilmişdir. Eləcə də, onun təşəbbüsü ilə dünya mədəniyyətinin bir çox nümunələri bərpa edilmişdir. Onun bir sıra beynəlxalq mükafatlara layiq görülməsi də həmin fəaliyyətinin yüksək qiymətləndirilməsidir.

Ancaq tək bunlar deyil. Mehriban xanımın təşəbbüsü ilə Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilmişdir. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır. Bu keyfiyyətlərin bir çoxuna Xurşidbanu Natəvan haqqında olan yazılarda da rast gəlirik.






Mən bu sətirlərdə İSESCO-nun baş direktoru olmuş Əbdüləziz bin Osman əl Tuveycrinin Mehriban xanımın fəaliyyətinin bir çox keyfiyyətlərini xarakterizə edən fikirlərini də yada salmaq istərdim. "Mehriban xanıma bu qurumun ən yüksək fəxri adının verilməsi ilə əməkdaşlıq bundan sonra daha da genişlənəcəkdir. ISESCO-nun tarixində ilk dəfədir ki, bu ad xanıma verilir. Mehriban xanım sivilizasiyalararası dialoq və digər cəsarətli fəaliyyətləri çərçivəsində gördüyü genişmiqyaslı işlərə görə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına, təhsilə verdiyi dəstəyə görə bu ada tam layiqdir. Cəmi 4 nəfər bu adı alıbdır. ISESCO-ya da, İslam aləminə də şərəf gətirəcəkdir".

Mehriban xanım Azərbaycan mədəniyyətinin təkcə bugünkü uğurlarının təbliğ edilməsilə kifayətlənmir, yaxın-uzaq keçmişimizdəki mədəniyyət nümunələrinin qorunub saxlanılması, bərpa və təbliği istiqamətində də çoxsaylı layihələrin icrasına nail olmuşdur. Məsələn, 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində "Arxeoloji Etnoqrafik Muzey Kompleksi"nin yaradılması ölkəmizin zəngin mədəni irsinə olan yüksək ehtiramın təzahürü idi. Bu tədbir Heydər Əliyev Fondunun tarixi keçmişimizi qoruyub saxlamağa, ölkəmizi turizm mərkəzlərindən birinə çevirməyə yönəlmiş geniş fəaliyyətin nəticələrindən biri idi. Orada Abşeron yarımadasının tunc dövründən – eramızdan əvvəl III minillikdən başlayaraq XX əsrin əvvəllərinə qədərki tarixi mərhələlərinə aid zəngin maddi mədəniyyət nümunələri, kurqanlar, sərdabələr, yaşayış evləri, ovdanlar, qədim qəsrin qalıqları, beş məscid, üç hamam və s. abidələr yerləşir. Gəncədə İmamzadə məscid-ziyarətgahının, Qafqazın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidinin və digər dünya əhəmiyyətli tarixi-memarlıq abidələrinin bərpası da Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmişdir.

Sonda isə artıq səkkizinci dəfə reallaşdırılmış Televiziya Muğam müsabiqələri barədə bir neçə söz demək istərdim. I Televiziya Muğam Müsabiqəsi 2005-ci ildə keçirilib. Dahi bəstəkar Üzeyir Hacıbəylinin 120 illiyinə həsr edilmiş və "Space" televiziyasında yayımlanan müsabiqə nəinki ölkəmizdə, hətta bütün Şərqdə maraqla qarşılanmış və diqqətlə izlənilmişdi. Məhz həmin marağın nəticəsidir ki, bu müsabiqə ənənəviləşmiş, ölkə ictimaiyyətinin, xüsusən mədəniyyət xadimlərinin böyük rəğbətini qazanmışdır.

Mehriban xanımın təşəbbüsü ilə 2005-ci ildə ərsəyə gəlmiş "Qarabağ xanəndələri" muğam albomunun təqdimatı zamanı çıxış edən sənət adamlarının əksəriyyəti arzulamışdı ki, muğamımız Qarabağa qayıtsın. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz düşmən işğalı altında olan torpaqlarımızı əsarətdən azad etdi və Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu artıq Şuşada bir neçə möhtəşəm mədəniyyət tədbirini reallaşdırdı.

Biz əminik ki, Azərbaycan mədəniyyəti bundan sonra da daim Mehriban xanımın qayğı və diqqəti ilə əhatə olunacaq.

***Elçin ORUCOV,***
***rəssam, Əməkdar mədəniyyət işçisi***